

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 138 (21.290)

16 iyul 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

İyulun 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının 2015-ci ilin 6 ayında gördüyü işlər barədə müşavirə keçirilmişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının sədri Azər Zeynalov məruzə etmişdir.

Müzakirə olunan məsələ ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Əhməd Əhmədov, Naxçıvan Muxtar Respublikasının milli təhlükəsizlik naziri Vəli Ələsgərov, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov, Naxçıvan Sərhəd Diviziyasının komandiri Asəf Quliyev, Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru Yaşar Həsənov və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov məlumat vermişlər.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq mənəvi və əxlaqi dəyərlərə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir edən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan amildir. Ona görə də bu məsələ bu gün bütün dünyanı düşündürür, təsirli tədbirlər görülməsini tələb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1996-cı il 30 avqust tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası yaradılmışdır. Komissiyanın vəzifəsi narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdən və bu sahədə fəaliyyəti əlaqələndirməkdən ibarətdir. 2006-cı ildə Komissiyanın fəaliyyətinə yenidən baxılmış və Ali Məclis Sədri yanında müşavirə keçirilərək narkotiklərlə mübarizəni daha da gücləndirmək məqsədilə hər bir orqan qarşısında konkret vəzifələr qoyulmuşdur. Bu tədbirlər öz nəticəsini vermiş, muxtar respublikada narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində sistemli iş aparılmışdır. Lakin bu sahədə işin səmərəliliyinin artırılması, narkomanlığa düçar olmuş şəxslərin sağlam həyata qaytarılması və mübarizə metodlarının təkmilləşdirilməsi üçün əlavə tədbirlərə də ehtiyac vardır.

Ali Məclisin Sədri narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi barədə aidiyyəti orqanlara konkret tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyasının yeni tərkibi təsdiq edilmiş, müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını məhvetmə komissiyasının yeni tərkibdə yaradılması haqqında qərar qəbul olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikamızın ictimai həyatında fərqlənən gənclər mükafatlandırılıb



*İyulun 14-də Naxçıvan şəhərindəki "Duzdağ" otelində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 46-cı ildönümü münasibətilə tədbir keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov çıxış edərək bildirib ki, Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yol məhz 1969-cu ildən, yəni ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən başlanıb. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı ulu öndərin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir.

Qeyd olunub ki, respublikaya rəhbərliyinin bütün dövrlərində ümummilli lider Heydər Əliyev sağlam gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsini diqqət mərkəzində saxlayıb. Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran dahi şəxsiyyət gənclər siyasətini ölkədə həyata keçirilən ümumi prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. Məhz ulu öndərimizin müəyyənləşdirdiyi, ölkə başçısı cənab İlham Əliyevin davam etdirdiyi siyasət nəticəsində gənclər cəmiyyətdə bu gün öz layiqli yerini tutur.

Ümummilli liderin təməlini qoyduğu dövlət gənclər siyasəti muxtar respublikamızda da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilərək yeni bir mərhələyə qədəm qoyub. Ali Məclis Sədrinin gənclərə göstərdiyi qayğının nəticəsidir ki, bu gün muxtar respublikamızda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Naxçıvan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Son 20 ildə muxtar respublikamızda gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər görülür. Muxtar respublikamızda gənclər mərkəzlərinin, kitabxanaların, mədəniyyət evlərinin, ali təhsil müəssisələrində yeni tədris korpuslarının, yeni məktəb binalarının, olimpiya-idman komplekslərinin tikilərək və yaxud yenidən qurularaq gənclərin istifadəsinə verilməsi regionumuzda gənc nəslin asudə vaxtının səmərəli təşkil olunması, bilikli və bacarıqlı yetişməsi, intellektual səviyyəsinin artırılması baxımından böyük əhəmiyyət kəsb edir. Bütün bu işlərin görülməsində məqsəd ölkəmizdə, eləcə də muxtar respublikamızda sağlam, müasir biliklərə yiyələnmiş, dünyada ölkəmizi layiqincə təmsil edə biləcək gənc nəslin formalaşdırılmasıdır.

Vurğulanıb ki, gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Gənclər sahəsində atılan məqsədyönlü addımlar və qazanılan uğurlar onu deməyə əsas verir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda 2015-ci il gənclər və idman sahəsində müstəqillik dövrünün ən yaddaqalan illərindən biri olacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, əsası 1969-cu ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Ulu öndərin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra gənclərlə iş sahəsində də məqsədyönlü tədbirlər görülüb.

Qeyd olunub ki, ümummilli liderimiz bu sahənin hüquqi bazasının yaradılması, gənclərlə işin daha da təkmilləşdirilməsi məsələlərini diqqət mərkəzində saxlayıb, ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradıb. Bu gün dövlət gənclər siyasəti muxtar respublikamızda da uğurla həyata keçirilir. Məhz göstərilən qayğının nəticəsidir ki, hazırda muxtar respublikamızda məşğul əhalinin əksəriyyəti gənclərdən ibarətdir.

Məmməd Babayev deyib ki, bu gün Naxçıvanda gənclər savadlı, intellektli, dünyagörüşlü yetişdirilməklə yanaşı, həm də milli dəyərlərə sədaqət ruhunda tərbiyə olunurlar. Müasir Naxçıvan gəncliyi vətənpərvərdir, ölkəsini inkişaf etdirmək, qorumaq əzmində olan gənclikdir.

Sonra muxtar respublikamızın ictimai həyatında və müxtəlif yaradıcılıq sahələrində fərqlənən gənclərə hədiyyələr təqdim olunub.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının solistlərinin çıxışları alqışlarla qarşılanıb.

**Səbuhi HƏSƏNOV**

*Son illər həyata keçirilən məqsədyönlü tədbirlər muxtar respublikada sosial-iqtisadi inkişafı təmin etmiş, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün geniş imkanlar yaradılmışdır. Yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması bol məhsul istehsalına səbəb olmuş və ixracın həcmi xeyli artmışdır.*

## Muxtar respublikada kənd təsərrüfatı məhsullarının ixracı artırılır

2015-ci ilin ölkəmizdə "Kənd təsərrüfatı ili" elan edilməsi isə aqrar sahənin inkişafına əlavə stimul vermişdir. Fermer və torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikaları və mineral gübrələrlə təminat bu sahəyə marağı artırmışdır. Artıq muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulları daxili tələbatı ödəməklə yanaşı, həm də xarici ölkələrə ixrac olunur.

2015-ci ilin 6 ayı ərzində muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi 208 milyon 291 min 100 ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 184 milyon 420 min 600 ABŞ dollarını ixrac, 23 milyon 870 min 500 ABŞ dollarını idxal təşkil etmişdir. 2014-cü ilin yanvar-iyun ayları ilə müqayisədə ixracın həcmi 5,3 faiz artmış, idxalın həcmi isə 58,4 faiz azalmışdır. Ümumi ixracın 145 milyon 857 min 200 ABŞ dollarını sənaye məhsulları, 38 milyon 563 min 400 ABŞ dollarını isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir. İxrac olunan kənd təsərrüfatı məhsullarının həcmi ötən ildəkinə nisbətdə 5,9 faiz çox olmuşdur. Ümumiyyətlə, 2015-ci ilin birinci yarımilində 875,3 ton kənd təsərrüfatı məhsulları, o cümlədən 690,1 ton meyvə və tərəvəz məhsulları muxtar respublikadan ixrac edilmişdir. Qeyd edək ki, 2014-cü ilin müvafiq dövründə ixrac qismində göndərilən kənd təsərrüfatı məhsullarının həcmi cəmi 125,1 ton olmuşdur.

Göründüyü kimi, qəbul olunan dövlət proqramlarının uğurlu icrası, həyata keçirilən məqsədyönlü tədbirlər muxtar respublikada bütün sahələrlə yanaşı, kənd təsərrüfatının da dinamik inkişafına təkan vermiş, ixracyönümlü məhsulların çeşidinin və həcminin artırılmasına səbəb olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***



*Şəhərsalma mədəniyyətinin beş min il tarixi olan, şərəfli yol keçən qədim Naxçıvan tarixin heç bir dönəmində son illərdəki kimi bütöv, genişmiqyaslı iqtisadi uğurlar qazanmayıb. İnfrastrukturu müasir şəkildə yeniləşərək inkişafın yeni mərhələsinə qədəm qoyub bu müqəddəs torpaq. Qürur hissi keçiririk ki, bütün bunlar Naxçıvanın böyük tarix yaradan və tarixə hökm edən zəfər yoludur.*

# *Naxçıvan:* inkişaf və yüksəliş dövrü

Bu gün özünün müasir dövrünü yaşayan muxtar respublikanın mərkəzi Naxçıvan şəhərinin abadlığına, gözəlliyinə regionda həyata keçirilən tikinti-quruculuq tədbirləri hesabına hər gün yeni çalarlar qatılır. Əminliklə demək olar ki, dünyanın ən gözəl, təmiz, səliqəli şəhəridir bu gün Naxçıvan.

Ölkəmizdə cahanşümul iqtisadi nailiyyətlərin qazanılmasında özünəməxsus yeri var Naxçıvanın. Bu qədim yurd yerində sistemli şəkildə aparılan islahatlar ümumi iqtisadi fəallığı daha da gücləndirib, investisiya cəlbediciliyi əhəmiyyətli dərəcədə yüksəlib. Naxçıvan tarixin bütün dövrlərində olduğu kimi, bu gün də Azərbaycanın əsas istiqlal qapısıdır. Müstəqil dövlətçiliyin təməli Naxçıvanda qoyulub. Elə bu fakt hər şeyi deyir. Ona görə də sovet imperiya zəncirinin ilk dəfə məhz Naxçıvanda qırılması faktı təəccüblü deyil. Azərbaycanın üçrəngli bayrağı ikinci dəfə burada qaldırılıb. O ağır, o çətin anlarda xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan parlamentində qəbul edilən qətiyyətli qərarlar həm Naxçıvanı qoruyub, həm də Azərbaycanın gələcək müstəqilliyini təmin edib.

Bu gün özünün intibah və çiçəklənmə dövrünü yaşayan, möhtəşəm şəkildə yenidən qurulan, gözəlləşən, gözlərimizin önündə günü-gündən dəyişən qədim Naxçıvan indi dünyanın tacı, dünyanın bəzəyidir. Doğma diyarımız uğurlu quruculuq və sosial-iqtisadi inkişaf yolu ilə inamla, qətiyyətlə addımlayır. Böyük öndər Heydər Əliyevlə başlayan bu yol Naxçıvanı daha böyük xoşbəxtliyə, daha işıqlı sabahlara aparır. Görkəmli rus yazıçısı Lev Tolstoy yazırdı: "Xoşbəxt olmaq üçün xoşbəxtliyin mümkün olduğuna inanmaq lazımdır". Məhz biz naxçıvanlılar da XX əsrin son qərinəsində öz xoşbəxtliyimizi, öz nicatımızı dahi şəxsiyyət Heydər Əliyevlə tapacağımıza inandıq, Ona güvəndik. Bəli, ulu öndər Heydər Əliyevi xalqımıza bəxş edən bu torpaq Onun adına, arzularına layiq bir inkişaf yolundadır.

Bu gün muxtar respublikamızda təmin olunmuş hərtərəfli tərəqqi, heç şübhəsiz ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının davamlı icrası istiqamətində muxtar respublika rəhbəri tərəfindən reallaşdırılan ardıcıl və yorulmaz fəaliyyətin, məqsədyönlü və qətiyyətli mövqeyin, fədakar işin məntiqi nəticəsidir. Muxtar respublikada elə bir sahə yoxdur ki, diqqətdən kənarda qalsın, inkişafa nail olunmasın. Naxçıvanda ulu öndər tərəfindən əsası qoyulan quruculuq xəttinin bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən uğurla davam etdirilməsi muxtar respublikada böyük dəyişikliklərə səbəb olmuşdur.

1995-ci ildən sonrakı dövr muxtar respublikanın müasir tarixinin intibah mərhələsi kimi yaddaşlara həkk olunmuş, tariximizə yazılmışdır. Bu dövrdə iqtisadiyyatın dirçəlməsinə, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verilmiş, yeni iş yerləri yaradılmış, sərhədlərin etibarlı təhlükəsizliyi təmin edilmişdir.

Tikinti-quruculuq, abadlıq və bərpa işləri genişlənmiş, tarixə, mədəniyyətə, təhsilə, səhiyyəyə və elmə qayğının yeni mərhələsi başlanmış, bütün sahələrdə maddi-texniki bazanın möhkəmləndirilməsi prioritet vəzifəyə çevrilmişdir. Qədim Naxçıvan şəhərinin bütünlüklə yenidən qurulan geniş yollarıyla irəlilədikcə hər addımda gözoxşayan gözəlliklərə şahid olursan. Bu gözəlliklər yeni yaşayış binalarıdır, hərtərəfli iş şəraiti yaradılan inzibati binalardır, gülzarlıqlardır, parklardır. Dünyaca məşhur Naxçıvan memarlıq məktəbinin milli ənənələri ilə müasir şəhərsalma mədəniyyətinin bütöv, yaradıcı vəhdəti hər addımda diqqəti çəkir. Qəlbin fərəhlə dolur, belə şəhərdə yaşamağın gözəlliyini bir daha hiss edirsən, qəlbin belə möhtəşəm quruculuq işlərini yaradanlara minnətdarlıq hissləri ilə aşıb-daşır. Bir sözlə, Naxçıvan heç vaxt indiki qədər abad, güclü, hərtərəfli inkişafa nail olmamışdır.

20 ilin keçilən yoluna nəzər saldıqda nələr görmək olar muxtar respublikada? Və istəristəməz düşünürsən: blokada və inkişaf... blokada və tərəqqi. Son 20 ildə blokada şəraitində insan ağlına sığmayan dəyişikliklər baş verib. Naxçıvan bu gün dünyanın ən inkişaf etmiş regionları sırasındadır. Lakin bir fərq var. Onlar blokada şəraitinin çətinliklərini yaşamadan inkişafa nail olublar, Naxçıvansa blokadada olaraq inkişaf edir.

Quruculuğun ahəngdar və davamlı olması muxtar respublikamızın sürətli sosial-iqtisadi inkişafının bariz ifadəsidir. Burada həyata keçirilən belə tədbirlərin maraqlı tərəfi ondadır ki, bu prosesə ucqarlardan başlanılmışdır. Dağ və sərhəd yaşayış məntəqələrimizdə, ən kiçik kəndlərimizdə belə müasirtipli məktəb binalarının, həkim ambulatoriyalarının, kənd və xidmət mərkəzlərinin tikilməsi, yolların, körpülərin abadlaşdırılması kəndlini öz yurduna möhkəm bağlamışdır. Kəndlərdə şəhər rahatlığı yaradılmışdır. Torpağı və hərtərəfli şəraiti olan kənd adamı bu gün dövlətin dəstəyini, qayğısını hiss edərək yaşayır, qurub-yaradır, inkişafa öz töhfəsini verir.

Nazirlik, komitə, idarə, müəssisə və təşkilatlar üçün yeni inzibati binaların tikilməsi illərlə şəraiti olmayan köhnə binalarda işləyən insanların həyatında bir yenilik yaratmış, onların muxtar respublikamızın inkişafı naminə fəaliyyətlərini gücləndirmişdir. Yeni məktəb binalarının inşası, hərtərəfli şərait, müasir texniki yeniliklərin tətbiqi tədrisin keyfiyyətini ildən-ilə artırmaqdadır. Artıq Naxçıvan qəbul olunmuş mühüm dövlət proqramlarının uğurlu icrası nəticəsində kənd təsərrüfatı sürətlə inkişaf edən, enerji və ərzaq təhlükəsizliyi tam təmin olunan, yüzlərlə təhsil, səhiyyə və mədəniyyət müəssisələri üçün binalar tikilən, əhalisinin gəlirləri sürətlə artan, rifah halı günü-gündən yaxşılaşan, on minlərlə iş yeri yaradılan, demək olar ki, bütün yolları yenidən qurulan, ən müasir istehsal müəssisələri istifadəyə verilən muxtar respublikadır. Diyarımıza gələn çoxsaylı qonaqlar bu inkişafdan, gözəllikdən vəcdə gəlirlər. Az bir vaxtda və blokadada olan bir respublikada bu qədər iş? – deyərək təəccüblərini gizlədə bilmirlər. Muxtar respublikaya bir neçə dəfə gəlmiş qonaqlardan birinin sözləridir: "Bu işlər hər gün gözləriniz qarşısında həyata keçirildiyi üçün sizə adi görünür". Doğrudan da, aparılan quruculuq işlərinin vüsəti o qədər sürətli və ahəngdardır ki, gələn qonaqlar bu xariqələri möcüzəyə bənzədirlər. Naxçıvanın yeni növrağını, gözəlliyini, şan-şöhrətini, həyat tərzini, insanların yekdilliyini, qurub-yaratmaq əzmini görməyə gələnlərin sayı günü-gündən çoxalır. Dünyanı heyrətə salan bu diyar tarixi keçmişi, təbiəti və tarixi abidələri, zəhmətkeş, fədakar, yurd, torpaq təəssübünü hər şeydən üstün tutan insanları ilə əsl möcüzələr diyarıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun söylədiyi sözlər bu möcüzənin sirrini belə açıqlayır: ***"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".***

Muxtar respublikamızda görülən işlərin həcmi, sözün həqiqi mənasında, hər birimizin qəlbini qürurla doldurur. Bu illərdə muxtar respublikada aparılan quruculuq, abadlıq işlərinin, iqtisadiyyatda, mədəni həyatda, insanların güzəranında baş verən dəyişikliklərin kökündə Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, düzgün idarəetmə dayanır. Bu inkişaf, sözün əsl mənasında, dahi şəxsiyyət Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə ikinci qayıdışından sonra Azərbaycanın hər bir guşəsində gedən quruculuğun, mənəvi-siyasi, iqtisadi intibahın, Azərbaycanı Azərbaycana qaytarmaq xəttinin tərkib hissəsi, konkret bir regionda, Naxçıvan Muxtar Respublikasında əyani ifadəsidir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Naxçıvan Muxtar Respublikasının 90 il ərzində keçib gəldiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, tarixin sınaqlarından çıxmış ulu öndər Heydər Əliyevin yolu ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur".***

Naxçıvan yaşadı, inkişaf etdi, çox qısa zamanda Azərbaycanın lider regionuna çevrildi. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji hədəflər, inkişaf və tərəqqi proqramı uğurla həyata keçirilmiş, muxtar respublika ulu öndərimizin arzuladığı, görmək istədiyi kimi qurulmuşdur. Azərbaycan Prezidenti cənab İlham Əliyevin ardıcıl diqqət və qayğısı ilə Naxçıvan Muxtar Respublikası yeni hədəflərə doğru irəliləməkdə, Naxçıvanın daha parlaq gələcəyi üçün mühüm layihələr həyata keçirilməkdədir. İndi bu şəhərdə, ulu öndərimiz Heydər Əliyevin çox sevdiyi və bir vaxtlar çətin iş rejimində çalışdığı şəhərdə çox şey tanınmaz dərəcədə yaxşılığa doğru dəyişmiş və dəyişməkdədir. Bu, ilk növbədə, ümummilli liderimizin uzun illərə hesablanmış ideyalarının təntənəsidir. Bu təntənə müasir Naxçıvanın gerçək siması, real mənzərəsidir. Başımızın tacı saydığımız Naxçıvan bu möhtəşəmliyi ilə düşmənlərinə gözdağıdır. Öz qətiyyətli rəhbəri ilə bunları reallığa çevirən naxçıvanlılar ölkə Prezidenti cənab İlham Əliyevi muxtar respublikaya hər səfərində yeni quruculuq ünvanları ilə sevindirirlər. ***"Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır. Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir"***, – deyən ölkə başçısı muxtar respublikanın ölkəmizin inkişaf edən regionları arasında həmişə öz əhəmiyyətini qoruyub saxladığını xüsusilə qeyd edir.

Muxtariyyət tarixinin ən şanlı və əlamətdar dövrünü yaşayan Naxçıvanın tarixi qədim, keçmişi parlaq, mədəniyyəti zəngin olduğu qədər, uğurlu gələcəyini təmin etmək üçün kifayət qədər güclü potensialı da vardır. Bu gün həm də ona sevinirik ki, həmin potensialdan yüksək səmərəliliklə istifadə olunur, Ulu Tanrının Naxçıvana bəxş etdiyi nə varsa, hamısına etibarlı varislik hissi ilə yanaşılır. Ona görə də qədim və günü-gündən cavanlaşan Naxçıvanımızla hər birimizin qürur hissi keçirməyə mənəvi haqqı var. Çünki həyatımızın hər hansı sahəsinə nəzər salsaq, üzümüzü təbəssüm hisləri bürüyəcək.

*Müstəqil Azərbaycanın memarı olan ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi sabitlik, quruculuq siyasəti Naxçıvanda etibarlı əllərdə olaraq uğurla davam etdirilir, yeni nailiyyətlərə imza atılır, paytaxt şəhərimiz, rayon mərkəzlərimiz, ucqar dağ kəndlərimiz inkişaf və tərəqqinin yeni zirvələrini fəth edirlər.*

**Məhəbbət MİRZƏYEVA**

# Məktəblilər Ağbulaq İstirahət Mərkəzindədir

*Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi" davam edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə gənclərin və aztəminatlı ailələrin uşaqlarının "Yay məktəbi"nin keçirilməsi haqqında tədbirlər planına əsasən təşkil edilən məktəbin ilk iştirakçıları 3-9 iyul tarixlərində Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdləri olublar.*



İyulun 11-də isə Ağbulaq İstirahət Mərkəzi növbəti qonaqlarını – Şərur rayonundan gələn 45 şagirdi qəbul edib. Dünən biz də adıçəkilən mərkəzdə olduq, uşaqların asudə vaxtlarının təşkili istiqamətində görülən işlərlə maraqlandıq, şagirdlərin təəssüratlarını öyrəndik. Şərur rayonunun Xanlıqlar kənd tam orta məktəbinin müəllimi Gülnar Səfərova ilə söhbət zamanı bildirdi ki, şagirdlərin "Yay məktəbi" günləri çərçivəsində Ağbulaq İstirahət Mərkəzində ilk gündən başlayaraq müxtəlif mövzularda diskussiyalar aparılıb, konsert proqramları təşkil edilib, vətənpərvərlik mövzusunda filmlər nümayiş olunub, müxtəlif idman yarışları keçirilib. Bundan başqa, şagirdlərin Şahbuz rayonu ərazisində olan muzeylərə, Batabat yaylağına gəzintiləri də təşkil edilib. Şagirdlər arasında dostluq və yoldaşlıq münasibətlərinin qurulmasında "Yay məktəbi"nin rolu böyükdür. Burada keçirilən müxtəlif müsabiqələr uşaqların estetik, tətbiqi incəsənət istiqamətindəki qabiliyyətlərinin və yaradıcılıq potensialının inkişafına müsbət təsir göstərir. Buraya gəldiyimizdən bəri apardığımız müşahidələrdən deyə bilərəm ki, uşaqların "Yay məktəbi"ndə iştirakı yaxşı istirahət etmələri ilə bərabər, fiziki fəaliyyət ehtiyaclarını ödəmələrinə, yaradıcılıqlarını inkişaf etdirmələrinə səbəb olub.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının nümayəndəsi Səbuhi Hüseynov şuranın və muxtar respublika Təhsil Nazirliyinin uşaqların "Yay məktəbi" ilə bağlı gördüyü işlərdən danışaraq qeyd etdi ki, məktəblilərin asudə vaxtının illik həcminin əhəmiyyətli hissəsini yay tətili təşkil edir. On iki ayın doqquz ayını dərs oxumaq, imtahanlara, sınaqlara hazırlaşmaq hər bir şagird üçün çox yorucudur. Yayın gəlməsini səbirsizliklə gözləyən məktəblilər tədris ilində yorğunluğu yay tətili zamanı üzərlərindən atmağa çalışırlar. Naxçıvan Muxtar Respublikasında məktəblilər üçün "Yay məktəbi"nin təşkili bu baxımdan böyük əhəmiyyət daşıyır və muxtar respublikada uşaq, yeniyetmə və gənclərə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Digər əhəmiyyətli məsələ isə "Yay məktəbi"ndə aztəminatlı ailələrin uşaqlarının iştirakıdır. Bu da onu göstərir ki, dövlətimiz aztəminatlı ailələrə, eləcə də bu ailələrdə böyüyən uşaqlara xüsusi diqqətlə yanaşır. "Yay məktəbi" həm də uşaqların yay tətilinin bir hissəsini səmərəli keçirməyə imkan verir.

Burada istirahət edən Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Nurgül Ələkbərova dedi ki, Naxçıvanın bölgələrini gəzmək, görməli yerləri ilə tanış olmaq onun çoxdankı arzusu olub. İndi bu arzusu yerinə yetib. Artıq bir neçə gündür ki, burdadır və Şərur rayonunun digər məktəblərindən özünə yaxşı dostlar da tapıb.

Burada olarkən Şərur rayon məktəblisi Fatma Məmmədovanın atası Səfər Məmmədovla telefon əlaqəsi yaratdıq, fikirlərini öyrəndik. Qızının "Yay məktəbi"ndə iştirakından böyük sevinc hissi keçirən Səfər Məmmədov dedi ki, bəzi çətinliklər üzündən qızı yay tətili günlərində istirahətini evdə keçirməli olub. Ancaq indi övladı üçün belə imkanın yaradılması təkcə Fatmanın deyil, hər bir ailə fərdinin ürəyincə olub. Qızına belə bir sevinci yaşatdığına görə dövlətimizə minnətdardır.

Məlumat üçün bildirək ki, iyul ayının 3-dən start verilən "Yay məktəbi"nə sentyabr ayının 10-da yekun vurulacaq. Bu müddətdə 225 şagirdin, ümumilikdə isə 395 nəfərin mənalı istirahəti təmin ediləcək. Belə ki, 4-9 avqust tarixlərində Babək və Şahbuz, gələn ayın 12-17-də Culfa və Ordubad, 5-10 sentyabr tarixlərində isə Sədərək və Kəngərli rayonlarının şagirdləri Ağbulaq İstirahət Mərkəzinin qonağı olacaqlar. 20-25 iyul tarixlərində sağlamlıq imkanları məhdud uşaqlar, 28 iyul-2 avqust tarixlərində Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin tələbələri, 20-25 avqust tarixlərində isə Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Tibb Kollecinin tələbələri "Yay məktəbi"nin onlar üçün yaratdığı imkanlardan yararlana biləcəklər.

**Səbuhi HÜSEYNOV**

*(Əvvəli qəzetin 10 iyul 2015-ci il tarixli sayında)*

Şəhərləşən kəndlərimiz

# Cəhri



Qədim tarixi ilə seçilən Cəhrinin bugünkü növrağı da göz oxşayır. Babək rayonunun bu iri yaşayış məntəqəsi öz təsərrüfatı və sosial həyatı ilə də seçilir. Naxçıvanda vüsət almış müasir intibah prosesləri Cəhridə də özünü hərtərəfli şəkildə göstərməkdədir. İndi Cəhridə insanların məşğuliyyəti, onların həyat səviyyəsi əvvəlki dövrlərdən xeyli dərəcədə fərqlənməkdədir. Şübhəsiz, insanların həyat tərzinə də təsir edən bu amillərin arxasında muxtar respublikamızda əhalinin həyat səviyyəsində şəhərlə kənd arasında olan fərqin aradan qaldırılması istiqamətində çəkilən uzunmüddətli zəhmətin bəhrəsi durur. Əvvəllər, necə deyərlər, kənd deyəndə möhrə hasarlar, kələ-kötür daşla inşa olunmuş yarıuçuq ev və həyətlər, yarımqaranlıq "sovetlik" binası, primitiv kənd mağazası, sabahın erkənindən kəndi bürüyən təndir tüstüsü və bir avtomobil gələndə tozdumana qərq olan kənd yolları başa düşülürdü. Bir çoxları, xüsusən mənim kimi turizmçilər, adətən, kənd deyəndə milliliyi, sadə gözəlliyi ilə gözoxşayan bir kənddən bəhs edirik. Ancaq bu, heç də o demək deyil ki, kənddə bunun qorunub saxlanılması üçün kəndlərimiz elə həmin o 50-ci illərin filmlərindəki kadrları xatırlatmalıdır. Qərəz, hər bir insanın harada yaşamasından asılı olmayaraq, onun güzəranının, həyat səviyyəsinin yüksək olması, şəhərkənd demədən hamının eyni rifahlardan faydalanması ən təməl insan hüquqlarından biridir. Naxçıvanda hamının yaxşı tanıdığı Cəhri kəndinin timsalında bunun muxtar respublikada necə uğurla həll olunduğunu bir daha görürsən.

Müasir bir Naxçıvan kəndi kimi Cəhridə kənddən daha çox şəhər infrastrukturuna aid olan çox sayda elementlər vardır. Təsərrüfatla əlaqəli olan əhalisinin əksəriyyəti malik olduğu münbit torpaqların becərilməsi ilə məşğul olan Cəhridə bir çox istehsal və xidmət müəssisələri də fəaliyyət göstərir. Un dəyirmanı, 5 çörək, şirniyyat, plastik qapıpəncərə sexlərində hazırlanan məhsullar cəhrililərin bu məhsullara olan tələbatını ödəyir. Düzdür, müntəzəm hərəkət qrafiki olmasa da, kənddən Naxçıvan şəhərinə gün ərzində mikroavtobuslarla sərnişin daşınması xidməti vardır. Kənddə olarkən bildirdilər ki, hazırda Cəhridə əksəriyyəti lüks avtomobil olmaqla, mindən artıq fərdi minik maşını vardır. Bu da yerli camaatın nəqliyyat tələbatının ödənilməsinə imkan yaradır. Yollarına gəldikdə, Naxçıvan şəhərindən kənd mərkəzinədək və ara küçələrin əksəriyyəti olmaqla, hamar qara örtük salınmışdır ki, bu da həm yerli insanların, həm də kəndə gələn qonaqların rahatlığı üçündür. Cəhrililər çox qonaqpərvərdirlər. Kəndin ümumi ab-havası, ağsaqqal söhbəti, salamlı-sabahlı gənclər burada adamı darıxmağa qoymurlar. Burada hər kəsin qapısı qonağın üzünə açıqdır. Çünki dövlətin Cəhridə qurub-yaratdığı müasirliyin verdiyi rifah burada həm yerli sakinlərin, həm də kəndə ayaq basan digər insanların bir-biri ilə doğma adamlar kimi qaynayıb-qovuşmasına imkan yaradır.

Muxtar respublikamızın hər bir guşəsini ağuşuna almış quruculuqdan Cəhriyə də xeyli pay düşüb. Hələ 2007-ci ildə burada müasir kənd mərkəzi, musiqi məktəbi, 2 nömrəli tam orta məktəb üçün bina tikilib, kəndin yollarına asfalt salınıb. Daha sonra 2014-cü ilin fevralında Cəhrinin 1 nömrəli tam orta məktəbi və xəstəxanası əsaslı təmir olunub, xidmət mərkəzi yaradılıb. Ümumilikdə isə kənddə əlavə olaraq iki ticarət xidməti və bir məişət evi də xidmətlərini kənd əhalisinə təklif edir.

Cəhri özünün təhsil ənənələri ilə seçilən kənddir. Cəhri məktəblərində şəhər məktəblərindən heç bir səviyyədə geri qalmayan tam müasir şərait vardır. Təhsil nəticələrinə gəldikdə, burada bildirildi ki, 2013-2014-cü tədris ilinin yekunlarına görə, Cəhri məktəblərini 86 nəfər bitirib və onlardan yalnız 34 nəfəri ali məktəblərə, 10 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunub. Ötən il Cəhri məktəblərinin yetirmələrindən, sadəcə, bir nəfərin 600 baldan yuxarı və 6 nəfərin 500 baldan yuxarı nəticə göstərməsi burada çalışan 142 nəfər pedaqoqu ciddi düşündürməlidir.

Cəhrinin sosial həyatını bəzəyən infrastruktur sahəsi kimi burada sakinlərin sağlamlığına xidmət edən xəstəxananı qeyd etməliyik. Kənddə fəaliyyət göstərən aptek və 20 çarpayılıq Cəhri Kənd Sahə Xəstəxanasında çalışan 4-ü həkim, ümumilikdə, 39 tibb işçisi əhalisinin sayı 10 min nəfərdən yuxarı olan yaşayış məntəqəsinə səhiyyə xidməti göstərir.

Müxtəlif xalq çalğı alətləri üzrə təhsil verən musiqi məktəbi və mədəniyyət evi Cəhrinin gənc istedadlarının üzə çıxarılması, onların asudə vaxtının səmərəli keçirilməsi baxımından faydalıdır. Kənddə qurulmuş bir bankomat və üç POS-terminal vasitəsilə cəhrililər rayon mərkəzinə və Naxçıvan şəhərinə getmədən elektron bank ödəniş xidmətlərinə olan tələbatlarını elə buradaca ödəyə bilirlər.

***Bəli, zamanın sürətli axarında sanki özümüz də bilmədən tarixin bizə bəxş etdiyi növbəti bir intibah dövrünün bəhrələri qapımızın ağzınadək gəlmişdir. Bir vaxtlar kənddən şəhərə getməyə maşın tapanda sevinən Naxçıvan kəndlisi indi şəhər mədəniyyəti elementləri ilə bax beləcə təmin olunmuşdur. İnsanın yaddaşında kənddən çox şəhər təəssüratı yaradan Cəhrinin simasında da bunun bir daha şahidi olduq.***

✍ **Əli CABBAROV**

***Son illər muxtar respublikamızda irimiqyaslı layihələr reallaşdırılır, yerli xammaldan səmərəli istifadə etməklə daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müxtəliftəyinatlı yeni istehsal müəssisələri yaradılır. Həmçinin fəaliyyəti dayanmış müəssisələrin işi bərpa edilib, mütərəqqi texnologiyalar tətbiq olunub. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikamızda fəaliyyəti bərpa edilmiş və yenidən qurulmuş istehsal müəssisələrində 119 növdə, 507 çeşiddə ərzaq, 235 növdə, 588 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 354 növdə, 1095 çeşiddə məhsul istehsal olunur. 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq olmaqla, cəmi 336 növdə məhsullara olan tələbat yerli istehsal hesabına ödənilir.***

Təbii sərvətlərimiz

## "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyəti istehsal imkanlarını genişləndirir





Daxili bazarı yerli məhsullarla təmin edən müəssisələrdən biri də "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Yeraltı və yerüstü sərvətlərlə zəngin Naxçıvanın təbii resurslarından biri olan Duzdağ yataqları Naxçıvan şəhərindən 12 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşir. Məlumat üçün qeyd edək ki, Naxçıvan Duzdağında əsaslı tədqiqat işləri aparılıb və araşdırmalar nəticəsində müəyyən edilib ki, Duzdağ mədənindən 6 min il bundan əvvəldən başlayaraq duz çıxarılıb, mədənçilik inkişaf etdirilib. Duzdağ mədənindən Erkən Tunc dövründə geniş istifadə olunub, duz sosial və ictimai münasibətlər faktoruna çevrilərək sənətkarlığın və ticarətin, bununla birlikdə isə Naxçıvan şəhər mədəniyyətinin yaranmasına güclü təsir göstərib.

Primitiv üsulla çıxarılan duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılıb. Duzdağ yatağından sənaye üsulu ilə duz çıxarılmasına ilk dəfə 1927-ci ildə başlanılıb, sovetlər dönəmində bu sənaye müəssisəsində istehsal edilən daşduz ittifaq respublikalarına göndərilib. Lakin 1988-1993-cü illərdə bu sənaye müəssisəsinin də fəaliyyəti tamamilə dayanıb.

1993-cü ildən sonra ölkəmizdə yaradılan sabitlik və iqtisadi inkişaf yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunmasına əlverişli şərait yaradıb. Duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılıb, istismarı dayanmış və uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı sexi müasir texnoloji avadanlıqlarla təmin edilməklə müəssisə yenidən qurularaq istifadəyə verilib. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı müəssisəsi tikilərək istehsala başlanılıb. Burada bütün istehsal prosesi avtomatlaşdırılıb, paketləyici avadanlıq quraşdırılıb. Bu da hazır məhsulu 200, 250 və 500 qramlıq taralarda qablaşdırmağa imkan verir.

Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal prosesinin təkmilləşdirilməsi işləri uğurla davam etdirilib, 2010-cu ildə 3 ədəd rəqəmsal yodvuran, 2 ədəd tarixvuran və 1 ədəd duzpaketləyən avadanlıq alınıb quraşdırılıb. Əl əməyi yüngülləşdirilib, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, istehsal edilən məhsulun vaxtında sifarişçilərin ünvanlarına çatdırılması da təmin edilib. Həmçinin duz mədənində istehsalatda baş verə biləcək qəzaların qarşısının alınması məqsədilə ötən il bir sıra tədbirlər həyata keçirilib, 300 metrlik ehtiyat çıxışı yaradılıb. 1050 metr uzunluğunda olan şaxtaya duz hasilatını davam etdirmək üçün dövlət maliyyə dəstəyi ilə 250 metr əlavə edilib. Mailiyi 75 metr olan şaxtanın daha yüksək səviyyədə və təhlükəsiz işıqlandırılması məqsədilə yeni transformator qoyulub. Bundan başqa, buraya 750 metr yüksək gərginliyə davamlı kabel xətti çəkilib. Şaxtada çökmələrin qarşısını almaq üçün 18 yerdə bərkitmə işləri aparılıb, 2000 metrlik tros kanat yenisi ilə əvəz edilib.

İstifadəyə verilən yeni istehsal sahələri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir. Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir. Gündəlik istehsal gücü 40-45 ton daşduz, 20-25 ton isə üyüdülmüş duz olan "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətində 18 çeşiddə duz istehsal olunur və bu məhsullardan məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Məişətdə istifadə edilən yodlaşdırılmış duz həm nəfis tərtibatla bəzədilmiş 0,5, 1 kiloqramlıq karton və plastik, həm də 0,2, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə "Duzdağ" əmtəə nişanı ilə satışa çıxarılır.

80 nəfərin işlə təmin olunduğu müəssisənin ixrac potensialı ildənilə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən duzun keyfiyyətinə tam nəzarət etməyə imkan verir. İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə duz yeraltı partlayış üsulu ilə əsas kütlədən ayrılıb kiçik vaqonlara yüklənərək yerüstü sahəyə daşınır. Daşduz yerüstü sahədə çeşidləndikdən sonra emal sahələrinə gətirilir. Daşduz birinci sexdə 2 mərhələdə müxtəlif avadanlıqlarda əzilərək üyüdülüb, hər ton duzun tərkibinə 85 qram yod əlavə edilməklə elevatorla ikinci sexə ötürülür. Burada isə ələkdən keçirildikdən sonra paketlənir. İstehsal olunan məhsulun taraları üzərində yod çatışmazlığının fəsadları ilə əlaqədar məlumat, duzun tərkibi, istehsal tarixi və yararlılıq müddəti göstərilir.

Daxili bazarı keyfiyyətli məhsullarla təmin etmək əzmi ilə çalışan kollektiv cari ilin ilk 6 ayında 2792,3 ton daşduz və 1247,7 ton üyüdülmüş duz istehsal edib. Müəssisə tərəfindən 1114,7 ton daşduz və 1332,1 ton üyüdülmüş duz satılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. Keyfiyyət göstəriciləri ilə seçilən və insan sağlamlığı üçün vacib elementlərlə zəngin olan Naxçıvan duzunun ölkəmizin digər regionlarında da satışını təmin etmək məqsədilə Bərdə şəhərində baza yaradılıb. Müəssisənin balansındakı yük maşınları ilə duz bazaya daşınır, oradan da sifarişə uyğun ətraf rayonlarda fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır. Ümumilikdə, müəssisədə istehsal olunan daşduzun 72 faizi, narın duzun isə 65 faizi Bakı şəhərində və ölkəmizin digər regionlarında satışa çıxarılıb.

✍ **Kərəm HƏSƏNOV**



**Hər fəslin gözəlliyi, ilk növbədə, onun özünəməxsusluğundadır. Qışı qarsız, payızı barsız təsəvvür etmək olmadığı kimi, yazı da çiçəkli, təravətli görməyə və duymağa öyrəşmişik. Gözlərimizi də ruhumuz kimi oxşayıb təbiətin bu çiçək ətirli fəsli. Çəmən-çiçək göz oxşayıb, ruha qida verib. Maraqlıdır, bəs yay ayları hansı özünəməxsusluğu ilə yaddaşlara iz salır?**

**Ustad Aşıq Ələsgər fəsilləri vəsf edərkən deyirdi: "Yayda yaylağımdı, qışda oylağım, yazda seyrangahım bu dağlar mənim..."**

# Obaları oymaq-oymaq...





Yayda sinəsi yaylağa, payızda ətəkləri oylağa çevrilən dağların yenə də elə-elata gəl-gəl deyən çağlarıdır. Yollar yenə də ariş-arğac, yaylaqların örüş-arxac vaxtlarıdır. Dağların gül fəslindən sonra yaylağa qalxan elat köçü yolları ariş-arğaca, örüş-arxaca döndərir.

Muxtar respublikamızda da maldarlığın və heyvandarlığın inkişaf etdirilməsində yaylaqların mühüm rolu vardır. Qızmar yay günlərində sürülərin yaylaqlara qaldırılması baş verə biləcək itkilərin qarşısının alınması ilə yanaşı, heyvandarlıq məhsullarının istehsalının da artırılmasına öz müsbət təsirini göstərir. Yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə səhiyyə xidmətinin təşkili üçün Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi 2014-cü ildə xüsusi həkim briqadaları yaratmış, həmin briqadaların mövsüm ərzində daim yaylaqlara getməsi, burada müvəqqəti yaşayan əhalinin sağlamlığının qorunmasına xidmət etməsi təmin olunmuşdur. Obalarda yaşayan sakinlərin zəruri dərman həbləri, sarğı materialları ilə təminatı, səhiyyə maarifi işi aparılması, mövsümi xəstəliklər, günvurma, ilan və əqrəb çalmaları, yaralanma zamanı ilk yardım barədə tibbi məsləhətlər verilməsi də diqqətdə saxlanılan məsələlərdəndir.

Ordubad Rayon Mərkəzi Xəstəxanası həkim briqadasının tərkibində Göygöl ərazisindəki obalaradır yolumuz. Avtomobildə səslənən mahnı ovqatımıza güzgü tutur:

*Obaları oymaq-oymaq,*
*Yalan sözdür, ay aman, yardan doymaq...*

Biləvdən ayrılan yol üzərində yerləşən dağ kəndləri –Tivi, Bist, Ələhi, Xurs, Nürgüt, Nəsirvaz sovet dövründə əlçatmaz, ünyetməz yaşayış məskənləri sayılırdı. Göygölə, Gəmiqayaya gedib çıxmaq hər adamın işi deyildi. İndi vəziyyət tamam başqadır. Yeni, rahat yollar, salınan körpülər dağ kəndlərinə gediş-gəlişi xeyli asanlaşdırıb. Bir vaxtlar qış fəslində gediş-gəlişi kəsilən bu kəndlərdə yeni məktəblər, kənd mərkəzləri, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri, xidmət obyektləri tikilərək əhalinin istifadəsinə verilib. Yeni quruculuq ünvanlarının həyətlərində aparılan abadlıq işləri, xüsusən salınan bağ-bağçalar görənləri valeh edir.

Ələhidə yolüstü dayandıq. Kardioloq Malik Əsgərov bir xəstəyə baş çəkincə burada tanış olduğumuz Zakir müəllim yaranmış fasilədə bizi qonşuluqdakı evinə dəvət edərək – "Hələ uzaq yol gedəcəksiniz, ayaqüstü də olsa, bir stəkan çay için", – dedi. Lakin vaxtımız olmadığından evə gedə bilmədik, incimasin deyə – "sağlıq olsun, çayı geri dönərkən içərik", – deyə vəd verdik.

Sonuncu yaşayış məskəni Nürgütdən sonra dağ yamacları başlayır. Hərbi hissənin bölüyü yol üstündə yerləşir. Bölük üçün yeni, müasir bina inşa edilib, burada xidmət edən əsgərlərə lazımi şərait yaradılıb. Təxminən, 6-7 ilin söhbətidir. Kəngərli rayonunun Çalxanqala kəndinin adlısanlı fermeri Vəzir Abdullayev bu yaylaqdakı sürüsündən əsgərlərə pay gətirmişdi. Şəxsi heyətə minnətdarlıq edərək – "Biz sizin hesabınıza bu yerlərdə at oynadırıq, sürü, naxır saxlayırıq, nahaq deməyiblər ki, ordun varsa, yurdun var" – dediyini indi də xatırlayıram.

Həqiqətən, bu yerlərin hər qarışı əsgərlərimiz tərəfindən sayıqlıqla qorunur, obalarda, yaylaqlarda əmin-amanlıqdır.

Təbii abidələr diyarı olan Ordubadın hər bir dağı haqqında nəsillərin yaddaşında yaşamış əfsanələr başər tarixinin ilkin təkamül çağlarından xəbər verir. Qədim dünyanın ən müqəddəs yerlərindən biri sayılan Gəmiqaya Ordubad rayonu ərazisində, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıqda yerləşir.

Gəmiqaya ulu babalarımızın əsrlərboyu inanc yeri olmuşdur. Burada, dağın zirvəsində qədim türk elləri ilə bağlı iki təbii göl vardır: Göygöl və Qazangöl. Göygöl dəniz səviyyəsindən 3065, Qazangöl isə 3150 metr hündürlükdə yerləşir. Gəmiqayanın dörd tərəfindəki oba, yaylaq, çay, çeşmə, bulaq və dərə-təpələr qədim türk soylarının adı ilə bağlıdır.

Göygöl istiqamətində yollar haçalanır, maşınımız "Genyurd" adlanan yaylaqlara yön alır. Səhərlərə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, yamaclara, təpələrə, çöllərə xalı kimi döşənmiş yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcığazlar səs-səsə verib ötüşürdü. Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik, irəlilədikcə qarşımızda bir-birindən daha gözəl təbiət, daha canlı lövhələr açılır, iri, kələ-kötür, ətəkləri qaratikan kolları ilə döşənmiş dağlar arasından üzüyuxarı qalxdıqca təbiət və hava başqalaşır, dağ nanələrinin, ayrıqotunun bal qoxusu verən iyi maşının içinə dolurdu. Qayaların ardı-arası kəsilmir, zəncir kimi bir-birinə hörülmüş, bir-birini qucaqlamış kimi durur. Uzaqda bir təpə ətəyində birbirindən çox da aralı olmayan alaçıqlar görünür. Yaxınlaşdıqca uşaqlar, bir neçə yaşlı qadın və kişi qarşımıza çıxdı. Hamısı da Kəngərli rayonunun Çalxanqala kəndindən idi. Aralarından bir nəfər çıxıb bizə "xoş gəldin" elədi. Elşən Abdullayev idi. Qardaşı fermer Nişan Abdullayev sürüsünü ona etibar edib. Elşən özünün 5 ailə üzvü ilə iri bir qayaya sığınan alaçıqda məskunlaşıb.

Sərhəddə yerləşən bu yerlərin etibarlı müdafiəsi, sərin havası, buz bulaqları, zəngin bitki örtüyü heyvandarlıq üçün əlverişli olduğundan buradakı obaların sayı ildən-ilə artır. Hazırda təkcə Genyurd yaylağında 6 oba məskən salıb. Onların öhdəsində 5 min başdan çox mal-qara, qoyun-quzu var. Çadırlarda fermer və çobanlarla yanaşı, onların 24 ailə üzvü yaşayır. Briqadanın fəaliyyəti zamanı onlar birbəbir profilaktik tibbi müayinəyə cəlb olunaraq pediatrik, kardioloji, cərrahi, stomatoloji müayinələrdən keçirildi, mövsümi xəstəliklərin qarşısının alınması məqsədilə sanitariya maarifi işi aparıldı, günvurma, ilançalma, həşəratsancma zamanı ilkin tibbi yardım barədə məlumat verildi.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Elmar Zeynalov, həkimlərdən Mübariz İbrahimov, İlqar İbrahimov, Malik Əsgərov, Rəsul Möhsünov, Tivi kənd həkim ambulatoriyasının baş həkimi Rza Adıgözəlov tibbi müayinələr apararkən ara-sıra Elşən bildirir ki, 2002-ci ildən yay mövsümünü Genyurdda keçirirlər. Ruzisini çobanlıqdan çıxarır. Otardığı sürünün tərkibində öz mal-heyvanı da az deyil. Dolanışığı yaxşıdır, kənddə yaxşı evi var, övladlarının da mənzil problemini həll edib, onlara ev tikdirib.

Sonra Hüseyn Əliyevin alaçığına yaxınlaşırıq. Burada ailənin 6 üzvü yaşayır. Hüseyn hər ay 900 manat məvacib alır, həmçinin özünün mal-qarasının, qoyun-quzusunun sayını ilbəil artırır.

Müzəffər Abbasov 1500 başlıq sürünün saxlanması, otarılması ilə məşğul olur. Onların arasında özünün 6 baş inək və camışı, 100 baş heyvanı var. Hətəm Şahhüseynovun sürüsündə isə 10 baş qaramal, 150 baş heyvan özünündür. Söhbət zamanı bildirdilər ki, mövsüm başlanandan bəri heç zaman tək qalmayıblar. Müxtəliftəyinatlı briqadaların qayğısı ilə əhatə olunublar. Qaz balonları, elektrik generatorları var. Yaxınlıqda dişgöynədən bulaq çağlayır.

Hətəm Şahhüseynov söhbət əsnasında bildirdi ki, sürü Çalxanqaladan yaylağa 10 gün yol gəlib. Yaylağa qalxmaq, arandan dağa köç sürmək mövsümün ən çətin işidir, sonra hər şey öz yoluna düşür. Bir də oba üçün lazım olan ağıl və hinləri qaydaya qoymaq, alaçıqları qurmaq lazım gəlir. Alaçıq, əsasən, çubuq, çətən və keçədən tikilir. Çubuqlar nazik meşə ağaclarından hazırlanır ki, uzunluğu, təxminən, 3-4 metr olur. Çətənə gəlincə, onun hazırlanması da sadə əl əməyinə əsaslanır. Ötən ildən qalma nazik, eyni diametrli qarğı-qamış kəsilərək bir neçə yerdən adi və ya rəngli iplə bir-birinə sıx bağlanır.

Alaçığın qurulmasında lazım olan materiallardan biri də keçədir. Çətən hazırlanmasından fərqli olaraq, keçəçilik qədim sənət nümunələrindən biri kimi az qala unudulmaq və sıradan çıxmaq təhlükəsini yaşayıb. Lakin son bir neçə ildir ki, folklor yaşıdlı bu sənətə əbədi məhəbbət özünü göstərməkdədir. Bu da bir daha soykökümüzə qayıdış, milli-mənəvi dəyərlərimizə dövlət və xalq qayğısının təzahürüdür.

Keçə alaçıqların digərlərindən fərqli cəhətləri çoxdur. Qızmar yayın istisi bu alaçıqlardakı əsl yaz havasını dəyişə bilmir. Keçə alaçığı isti havada sərin, soyuqda isə isti olur. Alaçığın döşəməsinə, adətən, quru ot, onun üstünə isə həsir və ya palaz sərilir.

Genyurd yaylağında iqtisadiyyat və mənəviyyat qovuşur. Burada təkcə mal-heyvanla məşğul olmurlar, həmçinin qış aylarına ehtiyat da görürlər: süddən təbii üsulla hazırlanan məhsullar (qatıq, pendir, xama, yağ, ayran və sair) üçün yaylaq xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda obada kartof əkir, əvəlik, ələyəz hörür, baldırğan turşusu hazırlayıb bazara çıxarırlar. Ev quşları da yaylaqda daha çox səmərə verir, toyuq əti, yumurta sarıdan korluq çəkmirlər.

Elə həmin gün Ordubad Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin dezinfektoru Qasım Qasımov tərəfindən su hövzələrində, sanitar qovşaqlarda, çadırların ətrafında dezinfeksiya, dezinseksiya tədbirləri həyata keçirildi. Parazitar xəstəliklərə səbəb olan məzməzə kimi həşəratların kökü ən azı mövsümün sonunadək kəsildi.

...Günəş Ağrının qoşa zirvəsinə enəndə birgünlük səfərimiz başa çatır. Çobanlar quzuları, oğlaqları bir ağıla doldururdular. Digər ağılda sağın aparılırdı, sağın qurtarandan sonra ağılın qapısını açarkən ana-bala qoyunlar mələşə-mələşə qaçaraq bir-birinə qarışırdı. Biz gələndə qulaqağrısından şikayətlənən 7 yaşlı Zilan tibbi yardımdan sonra ayaqyalın çəmən-çiçək dənizinə batır, qoyun-quzu mələşməsini heyranlıqla dinləyirdi.

Ayrılarkən Ordubad Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Elmar Zeynalov heyvandarlara ağrıkəsici və ilkin tibbi yardım üçün dərmanlar payladı, onlara tez-tez baş çəkəcəklərini bildirdi.

*Əyriçay, Güllüçəmən, bu torpaqların keşiyini çəkən əsgərlər, ucqar dağ kəndləri bir-bir arxada qalır. Ələhidən keçəndə bir nəfər ağac kölgəsində əyləşdiyi stuldan dik qalxıb bizə əl elədi. Zakir müəllim idi, birdən vədimizi unudarıq deyə, bir saatdan çox idi ki, yol kənarında bizi gözləyirmiş.*

**Hüseyn ƏSGƏROV**
***yazıçı-publisist***

## Kikboksinq üzrə şəhər birinciliyi

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmə və gənclər arasında kikboksinq üzrə şəhər birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi yarışda 12 çəki dərəcəsində 100-dən çox idmançı qüvvəsini sınayıb.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra çıxış edən federasiyanın sədr müavini Cavanşir Salayev muxtar respublikada bu növün təbliği və gənclər arasında kütləvi hal alması üçün belə tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıb. O qeyd edib ki, Naxçıvanda idmanın bütün sahələrinin inkişafı üçün hər bir şərait yaradılıb.

Tamaşaçılar final qarşılaşmalarında maraqlı görüşlərə şahidlik ediblər. Nəticəyə əsasən, Akif İsmayılov (24 kq), Əkbər Babayev (27 kq), İsmayıl Yaqubov (33 kq), Xəyal Fərəcli (36 kq), Həsən Kərimli (39 kq), Qadir Bağırov (42 kq), Nurxan Mirzəyev (45 kq), Fərman Rzayev (48 kq), Əbülfəz Rəcəbli (51 kq), Məhərrəm Süleymanov (54 kq), Araz Hüseynzadə (60 kq) və Əli Qəmbərov (67 kq) həlledici qarşılaşmalarda qalib gələrək birinci yerə layiq görülüblər.

Sonda hər çəki dərəcəsində ilk üç pillədə qərarlaşan idmançılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

## Elan

2015-ci il 14 iyul tarixindən etibarən Naxçıvan Beynəlxalq Hava Limanının Naxçıvan, Ordubad və Şərur şəhərlərində fəaliyyət göstərən aviakassalarında "Aeroflot", "Türk Hava Yolları", "Qətər Hava Yolları", "Ukrayna Hava Yolları", "Qazaxıstan Hava Yolları" və "Azərbaycan Hava Yolları" vasitəsilə həyata keçirilən uçuşlar üçün bütün istiqamətlər üzrə bilet satışına başlanılmışdır. Artıq aviakassalardan bilet almaqla dünyanın istənilən nöqtəsinə səyahət edə bilərsiniz.

***Əlaqə nömrələri*:**

*Naxçıvan şəhər aviakassası:*
(036)545-28-68

*Ordubad şəhər aviakassası:*
(036)547-10-41; 547-07-82
(060)540-97-16

*Şərur şəhər aviakassası:*
(036)542-28-22; 542-29-90
(060)540-97-15

Əlavə məlumat üçün Naxçıvan Beynəlxalq Hava Limanının ***airportnakhchivan.az*** internet səhifəsinə və ***airportnakhchivan@gmail.com*** elektron poçt ünvanına müraciət edə bilərsiniz.

### İtmişdir

Babək rayonunun Kültəpə kənd sakini Qasımov Əli Famil oğlunun adına olan JN-297[A] inventar nömrəli, 10308028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 547